# KİÇİK QAFQAZIN MƏRKƏZİ HİSSƏSİ BOTANİKİ-COĞRAFİ RAYONUNUN FLORİSTİK TƏHLİLİ

**Vazeh Baxşiyev**

*Bakı Dövlət Universiteti, baxshiyevfhs@rambler.ru*

Kiçik Qafqazın mərkəzi hissəsinin florası və bitkiliyinin öyrənilməsi qədim tarixə malik olub, özünün növ müxtəlifliyi ilə daim botaniklərin diqqətini cəlb etmiş, ərazidə bir-birini əvəz edən müxtəlif istiqamətli elmi tədqiqatlar aparılmışdır.

Kiçik Qafqazin mərkəzi hissəsinin florası «Флора Азербайджана», «Флора Кавказа» çoxcildliklərinə əsasən təyin edilməklə müəyyənləşdirilmişdir. Floranın təhlilində fəsilə, cins və növlərin adı S.K.Çerepanova əsasən verilmişdir.

Ədəbiyyat mənbələrinə əsaslanaraq, Kiçik Qafqazin mərkəzi hissəsinin florasında 112 fəsilə və 522 cinsə daxil olan 1296 növ ali bitki (17 ali sporlu, 5 çılpaqtoxumlu, 1274 örtülütoxumlu) müəyyənləşdirilmişdir ki, bu da Azərbaycan florasının (4500 növ) 28,3%-ni, Qafqaz florasının (6500 növ) isə 19,6%-ni təşkil edir.

Ərazidə örtülütoxumlu bitkilər ümumi floranın 98,3%-ni təşkil edir, onun 19,5%-i birləpəli (254 növ), 78,8%-i isə ikiləpəli (1020 növ) bitkilərdən ibarətdir. Qalan taksonlar: ali sporlular və çılpaqtoxumlular az növlə təmsil olunaraq, birlikdə 22 növlə 1,7% təşkil edirlər.

Fəsilələrin analizinə gəldikdə, *Asteraceae* Dumort. (158), *Poaceae* Barnhart. (132), *Fabaceae* Lindl. (110), *Rosaceae* Juss. (63), *Brassicaceae* Burnett (61), *Apiaceae* Lindl. (55) və *Scrophulariaceae* Juss. (54) fəsilələri daha çox növlərlə təmsil olunurlar. Bu fəsilələrə daxil olan növlərin sayı (633 növ) 158-54 arasında dəyişməklə floranın 48,9%-ni təşkil edir.

Cinslərin növ tərkibinə görə *Carex* L. (22), *Vicia* L. (20), *Veronica* L.(16), *Hieracium* L. (15), *Astragalus* L.(15) və *Geranium* L.(15) cinsləri daha çox növlə təmsil olunaraq, 103 növlə floranın 7,1%-ni təşkil edirlər.

Ərazidə yayılmış növlər həyati formalarına [C.Raunkiaer] görə əsasən hemikriptofitlər (694 növlə 53,6%) və terofitlər (340 növlə 26,3%) üstünlüyə malikdir.

Həyati formalarına görə [İ.Q.Serebryakov] birillik otlar 340 növ (26,3%), çoxillik otlar isə 821 növlə (63,4%) ilk yerləri tuturlar. Digər həyati formalar isə azlıq təşkil edir.

Tədqiq olunan ərazidə floranın 7 areal tipi və 17 areal sinfinə aid olduğu müəyyənləşdirilmişdir [A.A.Qrossheym]. Ərazi florasının formalaşmasında Qədim Aralıq dənizi (480 növ 37%) və Boreal areal tipli elementlər 314 növlə (24,2%) üstünlük təşkil edirlər. 286 növün areal tipləri müəyyən olunmamışdır ki, bu da ümumi floranın 22%-ni əhatə edir.

Ərazinin florasını ekoloji qruplara görə [A.P.Şennikov] təhlil etdikdə suya tələbatına görə kserofitlər 663 növlə (51,2%), mezokserofitlər 360 növlə (27,8%) 79% təşkil edirlər. Sonrakı yerləri isə mezofitlər 221 növlə (17%) və hidrofitlər 52 növlə (4%) tutur.

Qafqaz endemik növlərinin sayına (120 növ) görə *Asteraceae* (26), *Fabaceae* (16), *Rosaceae* (12), *Scrophulariaceae* (10), *Lamiaceae* (9), *Caryophyllacea*e (9) fəsilələri ilk yerləri tuturlar. *Orchidaceae*, *Tiliaceae*, *Liliaceae*, *Gentianaceae* və s. fəsilələrinin hərəsi 1 növlə təmsil olunur.

Kiçik Qafqazin mərkəzi hissəsində Azərbaycan Respublikasının "Qırmızı kitab"ına daxil edilmiş, nadir və nəsli kəsilmək təhlükəsi altında olan növlərdən *Juno caucasica* (Hoffm.) Klatt. – Qafqaz süsəni, *Pyrethrum komarowii* Sosn. – Komarov birəotu, *Pyretrum coccineum* (Willd.) Worosch. – Çəhrayı birəotu, *Corydalis alpestris* C.A.Mey. – Dağ mahmızlaləsi, *Atropa caucasica* Kreyer. – Qafqaz xanımotu, *Crocus speciosus* Bieb. – Gözəl zəfəran və s. yayılmışdır.

Antropogen təsir, qlobal iqlim dəyişikliyi, ətraf mühütdə hiss ediləcək dəyişikliklər səbəbindən Azərbaycanın (Kiçik Qafqazin mərkəzi hissəsi) endemik, nadir və nəsli kəsilmək təhlükəsi altında olan növlərinin biomüxtəlifliyinin qorunması respublikanın Milli Strartegiya və Fəaliyyət Planına daxil edilmişdir.